

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 52 (21.713)

15 mart 2017-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də Parisdə Fransa Respublikası Senatının sədri Jerar Larşe ilə görüşüb.

Senatın binasının qarşısında dövlətimizin başçısının şərəfinə fəxri qarovul və suvari dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Senatın sədri Jerar Larşe qarşılayıb.

Jerar Larşe Azərbaycan Prezidenti İlham Əliyevi Fransa Senatında görməkdən məmnun olduğunu deyib. O, belə səfərlərin ölkələrimiz arasında ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsi baxımından əhəmiyyətli olduğunu bildirib.

Azərbaycan Prezidenti İlham Əliyev ölkələrimiz arasında münasibətlərin, eləcə də parlamentlərarası əlaqələrin çox yüksək səviyyədə olduğunu vurğulayıb. Dövlətimizin başçısı bir neçə gün əvvəl Bakıda Fransa Senatının bir qrup üzvünü qəbul etdiyini, dünən isə MEDEF-in üzvləri ilə çox səmərəli görüş keçirdiyini xatırladıb.

Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdən sonra Prezident İlham Əliyev Senatın qızıl kitabını imzalayıb.



## Naxçıvanda fəaliyyət göstərən sahibkarlar təhsildə fərqlənən tələbələrə təqaüd verəcəklər



*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamının icrası ilə bağlı Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi, Naxçıvan Dövlət Universiteti, "Naxçıvan" Universiteti və Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyası birgə tədbir keçirib.*

Naxçıvan Biznes Mərkəzində keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov, Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov, "Naxçıvan" Universitetinin rektoru, professor İsmayıl Əliyev, Sahibkarlar Konfederasiyasının sədri Vüqar Abbasov çıxış ediblər.

Qeyd olunub ki, Azərbaycanda təhsilin inkişafı ötən əsrin 70-ci illərindən etibarən ön plana çəkilib, həmin dövrdə ulu öndər Heydər Əliyevin diqqət və qayğısı sayəsində milli kadrların hazırlanması istiqamətində kompleks tədbirlər həyata keçirilib. 1993-cü ildən etibarən ümummilli liderimizin uzaqgörən siyasəti nəticəsində respublikamızda təhsil özünün yeni inkişaf mərhələsinə qədəm qoyub, dünya təhsil sisteminə inteqrasiya olunub.

Ölkəmizdə təhsil sahəsində qazanılan uğurlar və əldə olunan nailiyyətlərdə Naxçıvan təhsilinin özünəməxsus rolu və payı vardır. Muxtar respublikada təhsilə göstərilən yüksək diqqət və qayğı sayəsində hər bir yaşayış məntəqəsində yeni məktəb binaları tikilib, ümumilikdə, ötən müddət ərzində 374 elm və təhsil müəssisəsi üçün bina tikilərək və ya yenidən qurularaq istifadəyə verilib.

Vurğulanıb ki, müasir dünyada hər bir sahədə inkişafın əsas hərəkətverici qüvvəsi ixtisaslı kadr hesab olunur. Ona görə iqtisadiyyatın müxtəlif sahələri üzrə kadrların hazırlanması daim diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli Sərəncamına əsasən, Naxçıvan Dövlət Universiteti üzrə İqtisadiyyat, Dünya iqtisadiyyatı, Menecment və "Naxçıvan" Universiteti üzrə Menecment, İqtisadiyyat, Biznesin idarə edilməsi ixtisasları İqtisadiyyat Nazirliyinə hamiliyə verilib.

Hamiliyə verilmiş ixtisaslarda təhsil alan tələbələrin həvəsləndirilməsi və özəl sektorun bu işə cəlb edilməsi məqsədilə sahibkarlıq subyektləri ilə maarifləndirici tədbirlər keçirilib, nəticədə, 17 sahibkar könüllü olaraq tələbələrə təqaüdlərin verilməsi üçün nazirliyə rəsmi müraciətlər ünvanlayıb. Bu tədbirlərin davamı kimi universitetlərlə birgə iş aparılıb, təhsildə fərqlənən 50 tələbəyə təqaüdlərin verilməsi nəzərdə tutulub.

İqtisadiyyat Nazirliyinin təşəbbüsü ilə Naxçıvan Dövlət Universitetinin və "Naxçıvan" Universitetinin rektorlarının razılığı əsasında təhsil prosesində fərqlənən və maddi-sosial imkanları zəif olan tələbələr müəyyən edilərək, muxtar respublikada fəaliyyət göstərən iş adamları tərəfindən təqaüdlərin verilməsi məqsədilə birgə razılaşma sənədi hazırlanıb.

Gələcəkdə hamiliyə verilmiş ixtisaslar üzrə kadrların özəl sektorda işlə təmin edilməsi qarşıya qoyulmuş prioritet məsələlərdəndir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi, Sahibkarlar Konfederasiyası, Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərinin dördtərəfli razılaşmaları imzalanıb.

Sonda Naxçıvan Dövlət Universitetinin tələbəsi Uğur Əkbərov və "Naxçıvan" Universitetinin tələbəsi Ruhiyyə Qasımova çıxış edərək yaradılan şəraitə və göstərilən qayğıya görə minnətdarlıqlarını bildiriblər.

✍ Kərəm HƏSƏNOV

*Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin kollektivi yaz suvarma mövsümünə hazırlaşır. Fevral ayında sututarlarına suvarma suyunun yığılması davam etdirilmiş, nasos stansiyalarında, kanallarda, hidrotexniki qurğularda təmir işləri aparılmışdır.*

## Melioratorlar yaz suvarma mövsümünə hazırdır

Əkin sahələrində su itkisinin qarşısını almaq, suvarılan ərazilərin şoranlaşmasına yol verməmək üçün açıq və qapalı drenajlarda, kollektorlarda, kanal və arxlarda mütəmadi olaraq lildən təmizlənmə işləri görülür. Ötən ay 19 kilometr magistral kanal, 36 kilometr ara arxları və 2 kilometr kollektor lildən təmizlənmişdir. Yaşayış məntəqələrini və əkin sahələrini sel sularından qorumaq məqsədilə, ümumilikdə, fevral ayında 2 kilometrdən artıq məsafədə istiqamətləndirici bənd tikilmişdir. Suvarma və içməli su mənbəyi kimi istifadə olunan 33 subartezian quyusunda isə əsaslı təmir işi aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti**

## Naxçıvanda sərnişinlər təhlükəsiz daşınır

*Naxçıvanda avtonəqliyyat xidmətinin səviyyəsinin yüksəldilməsi üçün bir sıra tədbirlər həyata keçirilir, marşruta buraxılan nəqliyyat vasitələrinin qrafikə uyğun hərəkəti və texniki sazlığı diqqətdə saxlanılır.*

Muxtar respublikada avtonəqliyyat vasitələri ilə təhlükəsiz sərnişin daşınması, marşrut qrafikinə nəzarət olunması məqsədilə yeni nəsil texnologiyalarından istifadə edilməsinə başlanılmışdır. Belə ki, Naxtel-4G GPS monitorinq izləmə sistemi hazırda Naxçıvan-Bakı-Naxçıvan marşrutunda işləyən avtobuslarda quraşdırılmışdır. Naxçıvan şəhərdaxili marşrutunda işləyən avtobuslara və taksilərə isə GPS-lərin quraşdırılması işi davam etdirilir. Ümumilikdə, bu günə qədər 34 avtonəqliyyat vasitəsində bu sistem quraşdırılmışdır.

İran İslam Respublikasının ərazisindən keçməklə fəaliyyət göstərən Naxçıvan-Bakı-Naxçıvan marşrutu üzrə fevral ayında Naxçıvandan Bakıya 943, əks istiqamətdə isə 1023 sərnişin daşınmışdır. Muxtar respublika daxilində də sərnişindaşıma xidmətinin səviyyəsi yüksəldilmiş, fəaliyyətdə olan 139 marşrut xətti üzrə rayon mərkəzləri və kəndlərin hamısı marşrutla təmin edilmişdir. Muxtar respublikada ötən ay ərzində 493 taksi əhaliyə xidmət göstərmişdir.

**Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin mətbuat xidməti**

## Naxçıvan şəhərində tikinti-quruculuq işləri davam etdirilir

*Bu gün muxtar respublikada rahat və geniş yollar çəkilir, müasir şəhərsalma mədəniyyətinin yüksək tələblərinə cavab verən əzəmətli binalar inşa olunur.*

Son günlər muxtar respublikamızda havaların isinməsi tikinti sektorunda işlərin canlanmasına səbəb olub. Belə ki, hazırda Akademik Həsən Əliyev küçəsində 4 mərtəbəli yaşayış binasında əsaslı yenidənqurma işlərinə başlanılıb. İlkin mərhələdə yaşayış binasına sakinlər tərəfindən sonradan artırılmış balkonlar sökülür. Sonrakı mərhələdə isə binanın eni 3 metr artırılacaq, daxildə təmir işləri aparılacaq, kommunikasiya xətləri yenilənəcək, dam örtüyü yenisi ilə əvəz olunacaqdır. Yaşayış binasının əsaslı şəkildə yenidən qurulması mənzillərin sahəsinin genişlənməsinə səbəb olacaq, burada yaşayan sakinlərin mənzil-məişət şəraitini yaxşılaşdıracaq.





Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası binasının fasadının üzlənməsi də cari ildə həyata keçirilməsi nəzərdə tutulan tədbirlərdəndir. Bu obyektdə də işlərə başlanılıb. Belə ki, hazırda xəstəxana binasının özülünü bərkitmək üçün qazıntı işləri aparılır.

Son illərdə Əziz Əliyev küçəsində yerləşən "Cahan" Ticarət Mərkəzinin qarşısında həm piyadaların, həm də sürücülərin sərbəst hərəkətində problemlər yaranır, sıxlıq müşahidə olunur. Bu problemin həlli üçün cari ildə piyadaların yolun sağ və sol hissəsinə rahat keçidini təmin etmək üçün piyada körpüsünün tikilməsi nəzərdə tutulub. Hazırda Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçıları tərəfindən ərazidə körpünün dayaqları üçün qazılmış yerlərdə betonqəlib işlərinə başlanılıb. Obyektdən verilən məlumata görə, eni 3 metr, uzunluğu 26 metr olacaq piyada körpüsü 3 dayaq üzərində tikiləcək. Avtomobil yolunun üzərində inşa olunacaq piyada körpüsünün dam örtüyü şəffaf materialla örtüləcək ki, bu da piyadalara yağıntılı havalarda rahat hərəkət etmək üçün imkan verəcək.

Ümumiyyətlə, muxtar respublikada elə bir sahə yoxdur ki, orada tikinti-quruculuq işləri həyata keçirilməsin. Son 21 ildə yüzlərlə yeni istehsal müəssisələri, təhsil, səhiyyə, mədəniyyət ocaqları üçün müasir binalar, hərbi təyinatlı obyektlər istifadəyə verilib. Təkcə 2016-cı ildə muxtar respublika üzrə bütün maliyyə mənbələri hesabına əsas kapitala investisiya qoyuluşlarının həcmi 2015-ci ilə nisbətən 5 faiz artaraq 997 milyon manatdan çox olub. İnvestisiya qoyuluşlarının 921 milyon manatından və ya 92 faizindən bilavasitə tikinti-quraşdırma işlərində istifadə olunması quruculuq işlərinin genişləndirilməsinə və kənd yerlərində infrastrukturun yenilənməsinə şərait yaradıb. Bunun nəticəsidir ki, 2016-cı il ərzində muxtar respublikada 14 təhsil müəssisəsi, 4 həkim ambulatoriyası, 9 feldşer-mama məntəqəsi, 29 mədəniyyət obyekti, 13 kənd mərkəzi, 14 xidmət mərkəzi tikilərək və ya yenidən qurularaq istifadəyə verilib, 17 inzibati bina inşa olunub, 61,5 kilometrdən artıq yeni avtomobil yolları salınıb, 3 körpü tikilib, 2 körpü isə yenidən qurulub.

**Xəbərlər şöbəsi**

*15 mart Ümumdünya İstehlakçı Hüquqlarının Müdafiəsi Günüdür*

# Naxçıvanda istehlakçı hüquqları etibarlı qorunur



İstehlakçıların hüquqlarının müdafiəsi sahəsində dövlət siyasətinin əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. Məhz ulu öndərimizin təşəbbüsü ilə 1995-ci il sentyabrın 19-da "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuş, bu sahədə hüquqi bazanın tam şəkildə formalaşdırılması istiqamətində məqsədyönlü və ardıcıl işlər həyata keçirilmişdir. Ötən müddətdə istehlakçıların hüquqlarının müdafiəsi ilə bağlı bir sıra normativ-hüquqi aktlar da qəbul edilmiş, qanunvericilik bazası möhkəmləndirilmişdir. Hazırda ölkəmizdə bütün sahələrdə keyfiyyət göstəricilərinin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində ciddi tədbirlər görülür. Bu gün Azərbaycanda daxili bazarın formalaşdırılması və istehlakçı hüquqlarının qorunması istiqamətində qarşıya qoyulan əsas vəzifə əhalinin istehlak mallarına olan tələbatını maksimum səviyyədə yerli istehsal hesabına yüksəkkeyfiyyətli məhsullarla təmin etməkdən ibarətdir.

Naxçıvan Muxtar Respublikasında istehlakçı hüquqlarının qorunması, əhalinin tələbatının daha keyfiyyətli və dolğun ödənilməsi diqqət mərkəzində saxlanılır. Yeni iş yerlərinin açılması, istehsal və xidmət sahələrinin yaradılması istehlakçı hüquqları üzrə aparılan işlərin də davamlı inkişafını şərtləndirir. Daxili bazarın formalaşdırılması və istehlakçı hüquqlarının qorunması istiqamətində qarşıya qoyulan əsas vəzifə əhalinin istehlak mallarına olan tələbatını maksimum səviyyədə yerli istehsal hesabına keyfiyyətli məhsullarla təmin etməkdən ibarətdir. Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, hazırda muxtar respublikada 366 növdə məhsul istehsal edilir, 344 növdə məhsula olan tələbat isə tamamilə yerli istehsal hesabına ödənilir. Bundan başqa, 442 istehsal müəssisəsindən 311-i və ya 70 faizi yerli xammaldan istifadə əsasında fəaliyyət göstərir.

Muxtar respublikada istehlakçı hüquqları aidiyyəti dövlət qurumlarının birgə fəaliyyəti ilə qorunur. Son illər bu istiqamətdə bir sıra əhəmiyyətli işlər görülmüşdür. Belə ki, istehsal, ticarət, ictimai iaşə, xidmət sahələrində görülən işlərin, göstərilən xidmətlərin və istehsal olunan məhsulların normativ-texniki sənədlərin tələblərinə uyğunluğu, sanitar norma və qaydalara nəzarət, insanların həyatına, sağlamlığına, əmlakına zərər vura biləcək məhsulların, işlərin, xidmətlərin qarşısının alınması, istehlak bazarının keyfiyyətsiz, təhlükəli, saxtalaşdırılmış və sertifikatlaşdırılmamış mallardan, işlərdən, xidmətlərdən qorunması və bu işlərə qanunvericiliklə müəyyən olunmuş qaydada dövlət nəzarətinin həyata keçirilməsi sahəsində ardıcıl tədbirlər görülür.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi istehlak bazarında satışda olan ərzaq məhsullarının keyfiyyətini daim nəzarətdə saxlayır. Bu məqsədlə ötən il 698 halda idxal, 1752 halda yerli istehsal mallarından nümunələr götürülərək keyfiyyət göstəricilərinin müəyyənləşdirilməsi məqsədilə Mərkəzi Qida Sınaq Laboratoriyasında analiz olunmuş, 22 halda məhsulun keyfiyyət göstəricilərinin normativ-texniki sənədlərin tələblərinə cavab vermədiyi müəyyən edilmişdir.

Yerli istehsalın genişləndirilməsi və istehsalçıların mənafelərinin qorunması da diqqətdə saxlanılmış, "Naxçıvan Muxtar Respublikasında istehsal olunan və tələbatı ödəyən ərzaq və qeyri-ərzaq məhsulları haqqında məlumat" hazırlanaraq aidiyyəti üzrə göndərilmiş, topdan və pərakəndə satış obyektlərində yerli istehsal məhsullarının satışına üstünlük verilməsi ilə bağlı sahibkarlarla maarifləndirici söhbətlər aparılmışdır. Bundan başqa, ticarət, xidmət və istehsal müəssisələrinin sahibkarlarına rəqabətqabiliyyətli məhsul istehsalı və yerli məhsulların satışına üstünlük verilməsi barədə metodik tövsiyələr verilmişdir. Artıq sahibkarlar tərəfindən, xüsusilə yeyinti məhsullarının lazımi keyfiyyətdə istehsalına, onların saxlanma şəraitinə riayət olunmasına, daşınmasına və satışına, istehlakçılara göstərilən xidmət səviyyəsinin xeyli dərəcədə yaxşılaşdırılmasına nail olunmuşdur. Məhsulun tarladan süfrəyə, istehsalçıdan istehlakçıya çatdırılmasında bütün tələblərə riayət olunur ki, bu da muxtar respublika əhalisinin ekoloji cəhətdən təmiz, keyfiyyətli və etibarlı ərzaqla təminatına imkan verir.

İstehlakçıların hüquqlarının qorunması istiqamətində həyata keçirilən tədbirlərdən biri də süni qiymət artımının və antiinhisar qanunvericiliyinin pozulması hallarının qarşısının alınmasıdır. Bu halların araşdırılması məqsədilə muxtar respublikada fəaliyyət göstərən istehsal sahələrində monitorinqlər aparılmış, aşkar edilmiş nöqsanlar aradan qaldırılmışdır. Ötən dövrdə daxili bazarda süni qiymət artımına səbəb ola biləcək halların qarşısının alınması məqsədilə 480 növdə yerli istehsal, 2045 növdə idxal mənşəli əsas istehlak mallarının topdan və pərakəndə satış qiymətləri nəzarətdə saxlanılmış, məhsulların qiymətlərində müşahidə olunan artım səbəbləri araşdırılmış və əvvəlki səviyyədə saxlanılmasına nail olunmuşdur. Bunlarla yanaşı, aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarının əməkdaşları ilə birlikdə həftədə bir dəfə olmaqla, daxili bazarda əsas istehlak mallarının pərakəndə satış qiymətlərinin monitorinqi həyata keçirilir, müəyyən olunmuş qiymətlərin müqayisəli təhlilləri aparılır.

Mövsümi qiymət artımının qarşısının alınmasında, eyni zamanda əhalinin fasiləsiz olaraq keyfiyyətli kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsində yaradılan soyuducu anbarların, habelə istixana komplekslərinin rolu böyükdür. Bu məqsədlə 2016-cı ildə Sahibkarlığa Kömək Fondunun vəsaiti və özəl investisiya hesabına muxtar respublika ərazisində ümumi tutumu 1750 ton olan 6 ədəd meyvə və tərəvəz məhsullarının saxlanması üçün soyuducu anbar tikilərək istifadəyə verilmişdir. Muxtar respublika əhalisinin qış mövsümündə keyfiyyətli tərəvəz məhsulları ilə təmin olunması istiqamətində 2016-cı ildə istixana təsərrüfatlarında 110 min kvadratmetr sahədə əkin aparılmış, 1332 ton tərəvəz məhsulları yetişdirilərək bazarlara çıxarılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı əsasında kənd təsərrüfatı məhsulları istehsalçılarının fəaliyyətinin stimullaşdırılması, əhalinin tələbatının daha dolğun ödənilməsi, süni qiymət artımının qarşısının alınması məqsədilə müasir standartlara uyğun Mərkəzi bazarda kənd təsərrüfatı məhsullarının və emal sənayesi məhsullarının satış yarmarkası təşkil olunur. Ötən il yarmarkada 1 milyon 781 min manat dəyərində 1310 ton kənd təsərrüfatı və 226 min manat dəyərində 138 ton sənaye məhsulunun digər bazarlarla müqayisədə 10-20 faiz intervalında ucuz qiymətlərlə əhaliyə satışı həyata keçirilmişdir.

***Muxtar respublikada istehlakçıların hüquqları etibarlı şəkildə qorunur. Ancaq istehlakçıların hüquqlarının qorunması yalnız dövlətin işi deyil. Hər birimiz bir istehlakçı kimi hüquqlarımızı, vəzifələrimizi bilməli, gündəlik fəaliyyətimizdə buna əməl etməyə çalışmalı, istehlak tələblərini pozanlara qarşı mübarizə aparmalı, eyni zamanda yerli məhsulların istehlakına üstünlük verməli, daxili bazarın qorunması və maliyyə vəsaitlərinin xaricə axınının qarşısını almaqla aparılan dövlət siyasətinə öz əməli işimizlə töhfə verməliyik.***

**Naxçıvan Muxtar Respublikası**
**İqtisadiyyat Nazirliyinin mətbuat xidməti**

*Hər hansı gözlənilməz hadisə səbəbindən insana dəymiş zərərlərin əvəzinin qaytarılmasına imkan verən sığorta cəmiyyətin inkişaf göstəricilərindən biridir. Müxtəlif istehsal yerlərində görülən işlər zamanı istehsalın təhlükəsizliyinin artırılmasına baxmayaraq, baş verə biləcək gözlənilməz bədbəxt hadisələr insanlara xeyli zərər vurur. Cansağlığının və ya əmək qabiliyyətinin itirilməsi ilə nəticələnən hallarda göstərilən maddi kömək bu zaman çox dəyərlidir. Əgər vaxtında bağlanılmış sığorta müqaviləsi varsa, zərərçəkmiş insanın həyatına, sağlamlığına və əmək qabiliyyətinə dəyən zərərlərin əvəzi ödənilir.*

# İstehsalatda bədbəxt hadisələrdən sığortalanmaq hər bir işçinin gələcəyinə zəmanətdir

Göründüyü kimi, istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından sığortanın icbari qaydada tətbiqi onun ictimai zərurətindən irəli gəlir. Çünki bu sığorta növü, son nəticədə, hər bir insana və onun ailəsinin sosial müdafiəsinə xidmət edir. Belə ki, hər kəsin öz sağlamlığına verdiyi dəyər qədər dövlətimiz üçün də hər bir vətəndaşın sağlamlığının qorunması ən mühüm vəzifələrdən biridir. Bununla yanaşı, istehsalatda bəzən qaçınılması mümkün olmayan hadisələr yaranır, insanların həyat və sağlamlığına zərər dəyir. Buna görə də istehsalatda baş verən müxtəlif bədbəxt hadisələr, habelə peşə xəstəlikləri nəticəsində əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortanı hər bir işçinin gələcəyinin zəmanəti kimi də qiymətləndirmək lazımdır.

Bu sığorta növü ölkəmizdə 2010-cu il mayın 11-də qəbul edilmiş "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikası Qanununa əsasən aparılır. Bu qanuna əsasən aparılan icbari sığorta istehsalatda baş verən bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində sığortaolunanların əmək qabiliyyətinin itirilməsi və ya ölümü ilə bağlı sığorta ödənişinin verilməsini nəzərdə tutur. İş vaxtı əmək qabiliyyətini itirmiş şəxslərin və ya onların himayəsində olmuş digər insanların maddi təminatında bu ödənişlərin mühüm əhəmiyyəti vardır.

Qanuna əsasən, bu sığorta növündə sığortaçı, sığortalı, sığortaolunan və digər faydalanan şəxslərin hüquq və vəzifələri müəyyənləşdirilib. Belə ki, işəgötürən kimi hüquqi və ya fiziki şəxslərlə bağlanmış əmək müqaviləsi və ya mülki-hüquq müqaviləsi əsasında işləyən hər bir işçi, dövlət orqanlarında çalışanlar, fərdi qaydada sahibkarlıq və əmək fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, habelə azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum olunmuş və işləyən şəxslər üçün istehsalatda bədbəxt hadisələr və peşə xəstəliklərindən sığorta icbari qaydada tətbiq edilməlidir. Bundan əlavə, həmin qanuna görə istehsalat təcrübəsi keçən tələbə və şagirdlər, müəssisələrdə işə cəlb olunmuş hərbi qulluqçular, hərbi və fövqəladə vəziyyət rejimində işlərin yerinə yetirilməsinə cəlb olunmuş şəxslər də bədbəxt hadisələrdən və peşə xəstəliklərindən icbari sığorta olunmalıdırlar.

Bu sığorta növündə zərərçəkənlərə verilən ödənişlər isə xeyrinə icbari sığorta müqaviləsi bağlanılmış şəxsin əmək fəaliyyəti yerinə yetirdiyi zaman bədən üzvlərinin zədələnməsi ilə sağlamlığının qəflətən və kəskin şəkildə pozulması, o cümlədən əlverişsiz və zərərli istehsalat amillərinin təsiri ilə yaranan xroniki və ya kəskin xəstəlik halları zamanı həyata keçirilir. Bağlanmış müqaviləyə əsasən, sığorta hadisəsi baş verdikdə sığorta ödənişi almaq hüququna malik faydalanan şəxsə müəyyənləşdirilmiş zərər məbləği həddində sığorta ödənişi verilir.

Qeyd etmək lazımdır ki, istehsalatda bədbəxt hadisələrin baş verməsi və peşə xəstəlikləri nəticəsində əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortanın tətbiqi zamanı sığortaçı baş vermiş sığorta hadisəsinin sığortaolunanın özü tərəfindən qəsdən törədilmiş hərəkətin nəticəsi olduğu, habelə onun sərxoş vəziyyətdə olması halında baş verdiyi zaman sığorta ödənişindən imtina hüququna malikdir.

İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində əmək qabiliyyətinin itirilməsi və ya ölüm halı baş verdikdə sığortaolunan və yaxud faydalanan şəxslər sığorta ödənişi almaqla maddi dəstək əldə edirlər. Bu zaman faydalanan şəxslər kimi istehsalatda sığorta hadisəsi nəticəsində zərərçəkmiş şəxslərin özü və ya sığorta hadisəsi nəticəsində sığortaolunanın ölməsi halında onun himayəsində olmuş əmək qabiliyyəti olmayan şəxslər, habelə sığortaolunanın ölümündən sonra doğulmuş uşaqları və digər faydalanan insanlar nəzərdə tutulur.

Bu sığorta növü zamanı sığorta-haqqına gəldikdə, bu, xeyrinə icbari sığorta müqaviləsi bağlanılan şəxslərin müəyyən olunmuş qaydada hesablanan birillik əməkhaqqı fondunun sığorta tarifinin faiz nisbəti əsasında hesablanır. Sığorta tarifi isə istehsalatda fəaliyyət növündən asılı olaraq müəyyən olunmuş peşə riskinin dərəcəsindən və sığortaolunanların kateqoriyalarından asılı olaraq 0,2 faizdən 2 faizədək müəyyənləşdirilir.

Hər bir işçi üçün iş yerində baş verə biləcək bədbəxt hadisələrdən və peşə xəstəliklərindən peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortanın həyata keçirilməsi işəgötürənin qanunvericiliklə müəyyən olunmuş vəzifəsidir. İşəgötürən bu vəzifələri yerinə yetirməklə öz işçilərinin sosial müdafiəsini də təmin etmiş olur. Ona görə də bu sığortanın aparılması göstərilən hallarda əmək qabiliyyətini itirmiş şəxslərin və ya onların himayəsində olmuş digər insanların maraq və mənafelərinin müdafiəsinə xidmət edir.

**Ülviyyə XƏLİLOVA**
***Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş mütəxəssisi***

***Novruz bayramı ərəfəsində xaricdən tezalışan maddələrin və pirotexniki vasitələrin gətirilməsinə qarşı mübarizə gücləndirilib. Bu məqsədlə muxtar respublika gömrük orqanları gücləndirilmiş iş rejiminə keçib.***

# Pirotexniki məmulatların qanunsuz dövriyyəsinə gömrük nəzarəti gücləndirilib



Qeyd edək ki, 23 dekabr 2003-cü il tarixli Azərbaycan Respublikasının Qanununa əsasən, partlayıcı maddə və qurğuların, eləcə də tezalışan maddələrin və pirotexniki vasitələrin mülki dövriyyəsi tamamilə məhdudlaşdırılıb. Yalnız xüsusi icazə əsasında idxalına yol verilən bu tip qurğu, maddə və məmulatların vətəndaşlar tərəfindən ölkə ərazisinə gətirilməsi, satışı və istifadəsi qanunla qadağan olunub.

Ötən illərlə müqayisədə pirotexniki məmulatların qanunsuz dövriyyəsinə cəhdlərin sayında azalma müşahidə olunsa da, bayram ərəfəsində yenə də bir sıra faktlar aşkar olunub. Əhalidə, xüsusən də uşaqlarda köhnədənqalma "bayram adət-ənənəsi"nə bağlılıqdan istifadə etməklə qazanc əldə etmək istəyənlər insanların sağlamlığına, rahatlığına, ətraf mühitə dəyə biləcək zərər və ziyana məhəl qoymadan müxtəlif üsul və vasitələrə əl atmaqla gömrük nəzarətindən yayınmağa cəhd göstəriblər. Bunun üçün bir neçə halda nəqliyyat vasitələrində düzəldilmiş müxtəlif gizli saxlanc yerlərindən istifadə edilib. Həmçinin pirotexniki vasitələrin vətəndaşların öz üzərlərində və əl yükləri arasında gizlədilərək keçirilməsinə də cəhdlər olub.

Mart ayının əvvəlindən bu yana gömrük orqanları tərəfindən, ümumilikdə, 5 adda 4775 ədəd pirotexniki vasitə saxlanılaraq müvafiq tədbirlər görülüb.

Xatırladaq ki, malların gömrük nəzarətindən gizli, eləcə də bəyanetməmə və ya düzgün bəyanetməmə yolu ilə keçirilməsi hallarına qarşı malın dəyərindən asılı olaraq Azərbaycan Respublikası Cinayət və İnzibati Xətalar məcəllələrində cəza və cərimələr nəzərdə tutulub.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

# Tarixi mənbələr Qarabağlar kəndi və Qarabağlar Türbə Kompleksi haqqında

***Qarabağlar Türbə Kompleksinin xalqımızın maddi-mədəniyyət abidələri arasında tarixi mövqeyini, dünya əhəmiyyətli abidə olmasını nəzərə alan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 2016-cı il 4 iyul tarixdə “Qarabağlar Türbə Kompleksinin bərpa və tədqiq olunması haqqında” Sərəncam imzalamışdır. Həmin sərəncamda deyilir: “Kəngərli rayonunun Qarabağlar kəndində yerləşən və XII-XIV əsrlərə aid edilən kompleksdən dövrümüzədək qoşa minarəli baştağ və türbə gəlib çatmışdır. Azərbaycan xatirə memarlığının mütərəqqi ənənələrini yaşadan bu abidə memarlıq quruluşuna və oxşar cəhətlərinə görə Əcəmi Naxçıvani memarlıq məktəbinin davamı, memar Əhməd Naxçıvani yaradıcılığının nümunəsidir”.***

### *Qarabağlar Kəngərli tayfa birləşmələrinə məxsus ad olub*

Respublikamızın ərazisində “Qarabağ” sözündən yaranmış Qarabağ, Qarabak, Qarabağlar, Qarabağlı adlı coğrafi adlar, yaşayış məskənləri – kəndlər mövcuddur. Tədqiqatçılar bu sözün etimologiyasını müxtəlif yöndən izah edirlər. Qarabak adının qara (böyük) və bak (qədim türk dillərində “el”, “tayfa”, “soy”) sözlərindən ibarət olduğu ehtimal edilir. Məlum olduğu kimi, qədim kəngər-peçeneqlərin tərkibində Qarabağ adlı tayfa olmuşdu. Peçeneqlər hələ eramızın əvvəllərindən Azərbaycanda yaşamışlar. Məhz buna görə də bu adı həmin tayfanın adı ilə əlaqələndirirlər.

“Qarabağ”ın türk sözü olması toponimiya ilə məşğul olan tədqiqatçıların, demək olar ki, əksəriyyəti tərəfindən təsdiq edilir. Professor V.Piriyev “Qarabağ”dakı “qara və “bağ” anlayışlarının Azərbaycan dilinə məxsusluğuna diqqət çəkərək, qara (sifət) və bağ (isim) ifadələrinin birləşərək mürəkkəb tərkibli “Qarabağ” yer adını yaratmasını vurğulayıb. Müəllifin sözlərinə görə, Azərbaycan, həmçinin digər türk dillərində “qara”nın rəngdən başqa “sıx”, “qalın”, “böyük”, “tünd” və başqa mənaları da var. Bu baxımdan “Qarabağ” termini “qara bağ”, yəni “böyük bağ”, “sıx bağ”, “qalın bağ”, “səfalı bağ” və sair mənalarını da ifadə edir.

Məlum olduğu kimi, Kəngərlilər peçeneq tayfalarından olmuş və eramızın əvvəllərində hunların tərkibində Cənubi Qafqaza gəlmişlər. Kəngərlilər Naxçıvanın köklü sakinləri və ən qədim tayfalarından biridir. V.Q.Qriqoryevin yazdığına görə, “Naxçıvanın ictimai-siyasi həyatında mühüm rol oynayan Kəngərlilər XIX əsrin 30-cu illərində: Yurtçu, Gümüşlü, Xalxallı, Qaraxanbəyli, Ağabəyli, Cığataylı, Qaracalı, Billici, Qaratulaqlı, Gecələr, Sarvanlar, Şahbanlı, Əlixanlı, Ərovanlı, Salayçı, Qızıllı, Pirxaxanlı, Qızıl Qışlaqlı, Kəlfirli, Qarabağlar kimi 20 tayfadan ibarət olmuş”, “Sofulu və Qaradolaq tayfaları ilə birlikdə 120 tirəyə bölünmüşdür”. Kəngərlilərin bu tayfa və tirələri Naxçıvan şəhəri və onun ətraf kəndləri, eləcə də Azərbaycanın digər zonalarına yayılmışdır. Belə ki, tayfanın Yurtçu tirəsi Yurtçu və Cəhridə, Gümüşlü tirəsi Xok və Şahtaxtıda, Xalxallı tirəsi Vayxırda, Ağabəyli, Cığasaylı, Qaracalı, Billici, Gecələr, Sarvanlar, Şahbanlı, Əlixanlı tirələri Naxçıvan şəhərində, Ərovanlı Kərimbəyli Dizəsində, Salayçı tirəsi Nəhəcir, Külüs, Mahmudobada, Qızıllı tirəsi Kültəpədə, Pirxaxanlı tirəsi Qahabda, Qızıl Qışlaqlı tirəsi Bulqanda, Kəlfirli tirəsi Türkeş və Sələsüzdə, Qarabağlar tirəsi isə Qarabağlarda məskunlaşmışdır.

X əsr müəllifi Konstantin Baqryanorod Cənub-Şərqi Avropa çöllərində yaşayan peçeneqlərin bir tayfasının “Qarabay” adlandığını yazmışdır. Türkoloqlar müəyyən etmişlər ki, qədim peçeneqlərin dilindəki “y” səsi başqa türk dillərində “q” səsini əvəz edirdi. Ona görə də Qarabay etnonimi “Qarabağ” kimi oxunmalıdır.

Qarabağ və Qarabağlar toponiminin yayılma arealı çox genişdir. Respublikamızda bir neçə oykonim və böyük bir ərazi bu adı daşıyır. B.Budaqov və Q.Qeybullayevin yazdıqlarına görə, hələ 1590-cı ildə Rəvan əyalətinin Vedi və Ağcaqala nahiyələrində Aşağı Qarabağlar, Yuxarı Qarabağlar, 1728-ci ildə İrəvan əyalətinin Maku nahiyəsində Qarabağ, 1828-1832-ci illərdə İrəvan xanlığı və Vedi rayonunda Qarabağlar, eləcə də XIX əsrdə Cənubi Qafqazda 5 Qarabağlar adlı kənd var imiş. XVIII əsrdə Qarabağ xanı Pənahəli xan Naxçıvandan Kəngərlilərin Qarabağlar tirəsindən bir sıra ailələri Qarabağa köçürmüş, orada Pirhəsənli, Qızıllı və Xoruzlu qollarına ayrılan bu tayfanın tirələri Quba, Dəvəçi, Göyçay və başqa ərazilərə də yayılmışdır.







Beləliklə, Qarabağlar adı Kəngərli tayfa birləşmələrinə məxsus ad olub “Kəngərlilərin böyük bir bölümü”, “Kəngərlilərin güclü, qüdrətli bir hissəsi” mənasında işlənir və bu fikri yerli faktlar da təsdiqləyir. Belə ki, Qarabağlar kəndi və onun ətrafı tarixən Kəngərli zonası, bu ərazidə yerləşən yaşayış məntəqələri isə Kəngərli kəndləri adlanır. Çünki Xok mahalında yaşayanların əksəriyyəti azərbaycanlı, böyük hissəsi isə Kəngərli tayfalarına mənsub olub və tayfanın Qarabağlar qolu eyniadlı kənddə məskunlaşıb. Deməli, Qarabağlar kəndinin adı Qarabağ tayfasının adından yaranmışdır. Ona görə də Qarabağlar qədim türk mənşəli peçeneqlərin Qarabağ tayfasının adını əks etdirir.

### *Qarabağlar kəndi tarixi mənbələrdə*

Kəngərli rayonunun Qarabağlar kəndi Azərbaycanın ən qədim yaşayış məskənlərindən biridir. Kəndin şimal-şərqində Qalacıq adlanan ərazidə e.ə. II minilliyə və I minilliyin əvvəllərinə aid yaşayış yeri (sahəsi, təqribən, 40 hektar) aşkar edilmişdir. Burada tunc bəzək əşyaları, boyalı qab qırıqları, iri qaya parçalarından tikilmiş dördkünc və oval şəkilli bina qalıqları tapılmışdır. Qarabağlardakı qədim qəbiristanda at və qoç formalı qəbirüstü abidələr aşkar edilmişdir. Qarabağlar kəndi ən qədim yaşayış məskənlərindən biri olmaqla, tariximizin orta əsrlər dövründə Azərbaycanın qədim şəhərlərindən birinə çevrilmişdir.

Bu şəhər Azərbaycanın mühüm ictimai-iqtisadi, siyasi mərkəzlərindən biri olmuşdur. Onun Yaxın Şərq ölkələri ilə Avropanı birləşdirən mühüm karvan yollarının üzərində yerləşməsi sayəsində burada sənətkarlıq, ticarət, iqtisadi həyat xeyli tərəqqi etmişdir. Burada olan möhtəşəm memarlıq abidələri – türbə və minarələr XII-XIV əsrlərdə Qarabağların böyük şəhər olduğunu sübut edir. Qarabağların şəhər kimi formalaşması və inkişaf dövrü isə Hülakülər dövləti dövründə olmuşdur.

Qarabağlar şəhəri XVI əsrdə dağıntılara məruz qalsa da, şəhər bölgə mərkəzi kimi statusunu itirməmişdir. Lakin bununla belə şəhərin əksər hissəsi xarabalıqlardan ibarət idi. Birinci Osmanlı idarəçiliyi dövründə (1587-1603) şəhər baxımsızlıq səbəbindən tənəzzülə uğramış və hətta 1590-cı il tarixli “İrəvan əyalətinin müfəssəl dəftəri”ndə kənd kimi qeyd olunmuşdur.

Qarabağlar şəhəri orta əsrlərdə bir sıra görkəmli səyyah, tarixçi və coğrafiyaşünasların diqqətini cəlb etmişdir. Orta əsrlərin bir çox məşhur səyyahlarının əsərlərində şəhərin gözəl iqlimi, əhalisi, tarixi abidələri haqqında maraqlı məlumatlar vardır. Nizaməddin Şami, İbrahim Əfəndi Peçevi, Övliya Çələbi, F.Rəşidəddin, N.Xanıkov, Moryer, İ.Şopen, İ.Tavernye kimi alim və səyyahlar Qarabağlar haqqında çox qiymətli məlumatlar vermişlər.

Qarabağlar haqqında XV əsrin görkəmli salnaməçisi Nizaməddin Şami “Zəfərnamə” əsərində bəhs etmişdir. Nizaməddin Şami orta əsrlərin məşhur fatehi Əmir Teymurun səfərlərində onu müşayiət etmiş, tarixi hadisələrin canlı şahidi olmuşdu. Müəllif özünün “Zəfərnamə”sində Əmir Teymurun Hindistandan dönməsi bölməsində Teymurun Qarabağlarda müəyyən müddətdə qalmasını belə təsvir edir: “Əmir Teymur Hindistandan paytaxt Səmərqəndə qayıtdıqdan sonra Azərbaycana və ona bağlı yerlərə gürcü və erməni əsgərləri tərəfindən təcavüzlər vaqe olduğunu, buna görə də rəiyyətlərin zərər gördüyünü xəbər aldı. Əmiri Hümayun namus və qeyrətinə toxunan bu hala görə 802-ci ildə (miladi 1399-1400 – İ.H.) hərəkətlə Xorasana doğru yola düşdü. Sultaniyəni keçərək Təbriz Qarabağlarına gəlib, orada ordusu ilə nazil oldu və səhraları çadırları və bayraqları ilə işğal etdi, ordunu təftiş ilə əsgərlərin hamısına ülufə (yem) və yeyəcək verdi...”

Əmir Teymur döyüş səfərinə çıxdığı zaman yolüstü Qarabağlar şəhərində dayanmış, buranın gözəl nemətlərindən dadmış, məscidlərində dua etmiş, əsgərlərinə “ülufə və yeyəcək” vermişdir.

Nizaməddin Şaminin bu şəhər haqqında yazdıqları ondan 300 il sonra burada olmuş Ö.Çələbinin “binur (nursuz – İ.H.) Teymur Qarabağlarda böyük bir qoşunu ilə beş ay müddətinə qışlağa qalmışdır” məlumatı ilə bir daha təsdiqlənir.

Məşhur türk tarixçisi İbrahim Əfəndi Peçevinin “Tarix” əsərində də Qarabağlar haqqında bəhs edilir. İbrahim Peçevi XVI-XVII əsrlərdə bu böyük Azərbaycan şəhərinin əhalisinin həyatı, ticarət və peşə sənətkarlığı haqqında məlumat verir. O göstərir ki, Qarabağlar onun dövründə böyük bir dairə olmuşdur. Qarabağlar şəhər və ona tabe olan ətraf yerlərdən ibarət idi.

İngilis səyyahı Moryer Qarabağlardakı xarabalıqları İranın Persepol şəhərinin memarlıq abidəsinə oxşadır. Moryerin Qarabağların xarabalıqlarını Persepolun (Təxti-Cəmşid – İ.H.) Əhəməni dövrü abidələri ilə müqayisəsinə münasibət bildirən AMEA-nın müxbir üzvü Vəli Əliyev yazır: “Əlbəttə burada mübaliğə vardır. Qarabağların orta əsr müsəlman abidələrini Persepolun Əhəməni dövrü abidələri ilə müqayisə etmək olmaz. Çox güman ki, Moryer Qarabağların çox qədim dövrlərə aid abidələrini nəzərdə tutmuşdur...” Digər tərəfdən isə arxeoloq-alim “...doğrudan da arxeoloji tədqiqatlar nəticəsində burada qədim dövrlərə aid xarabalıqlara təsadüf edilmişdir”, – deyir.

Türk hakimi III Sultan Muradın hakimiyyəti dövründə Qarabağlar Səfəvilər tərəfindən ələ keçirilmişdir. Tarixi mənbələrin verdiyi məlumata görə türk paşası Sultan Süleyman qışı öz əsabələri ilə birlikdə bu şəhərdə keçirərmiş.

XVII əsrin tanınmış türk səyyahı Övliya Çələbi Azərbaycana birinci səfərində (1646-1647-ci illər) “Böyük Qarabağlar şəhərinin təsviri”nə geniş yer vermişdir: “Bu şəhərin binasını ilk dəfə Mənuçöhr qoymuşdur. Qədim şəhərdir; indi də Naxçıvan torpağında ayrıca sultanlıqdır. Qədim zamanlarda böyük şəhər imiş. 1012-ci ildə (1603-cü ildə) Üçüncü Məhəmməd xan zamanında Osmanlı əlində ikən Əcəm zəfər qazandı. 1045-ci il tarixində (1635-ci il) Rəvan fatehi, zəmanənin Murad xanı Rəvan fəthindən sonra bu şəhərə gəlib burada dayandıqda qədim əlyazmalarda cənnət qədər abad olan şəhəri dərya misal qoşununun ixtiyarına verərək onu bilməsə dağıdıb xarab etmişdir, xarabalıqları hələ də durmaqdadır”. Göründüyü kimi, Ö.Çələbi “Səyahətnamə” əsərində Qarabağları böyük bir şəhər kimi təsvir etmişdir. Onun məlumatına görə, XVII əsrdə Qarabağlarda, təqribən, 50 min adam yaşayırdı; 10 min ev, 70 məscid, 40 minarə, karvansara, hamam, bazar və sair var idi. Şəhərin ab-havasından, bağ-bağatından, meyvələrindən, xörəklərinin dadından Ö.Çələbi ürəkdolusu söhbət açır: “Allaha həmd olsun bu şəhərin abhavasının lətafətindən əhvalımız da xoş olub atlara süvar olmaqla bəzi rəfiqlərimizlə şəhərə tamaşa etdik... Havasının lətafətindən xoşülü məhbub və məhbubələrə rast gəlirdik. Yeyəcək və içəcəklərinin, meyvələrinin bənzəri heç bir diyarda yoxdur. Qara Bağlar desək yerinə düşər. Elçi ilə bir bağı gəzərkən Yəzdan Qulu adlı bir bağban iyirmi altı cür şirəli armud gətirdi... Armudlar elə dadlı və şirəlidir ki, suyu yeyənin üzərinə, əlbəttə, nabat şərbəti kimi tökülər... Böyük bazarlarında pak və pakizə işçilərinin bişirdiyi cürbəcür Rəvan düyüsündən plovlar və hərisəsi, sanki sifr kimi ləziz və xoş ətirlidir. İşçiləri olduqca təmizdir. Zira cümləsi müsəlmandır”.



Azərbaycan Səfəvilər dövlətində Azərbaycan bəylərbəyliyi dövründə Naxçıvan ölkəsi 12 nahiyə və 1 sultanlıqdan ibarət idi. Naxçıvan ölkəsinin tərkibində Naxçıvan, Şərur, Dərələyəz, Bazarçayı, Məvaziyi-Xatın, Mülki-Arslan, Dərə-Şahbuz, Əlincə, Sisəcan, Azadciran, Şorlut, Dərəşam nahiyələri olmuşdur. Qarabağlar ərazisi isə Naxçıvan ölkəsi tərkibində sultanlıq idi. Birinci Osmanlı idarəçiliyi dövründə Qarabağlar sultanlığı Naxçıvan sancağının bir nahiyəsinə çevrilmişdi. Bu dövrdə Qarabağ nahiyəsi 6 kənd, 2 məzrədən ibarət idi. Tədqiqatçıların fikrincə, XVII əsrin əvvəllərində Naxçıvan ərazisində öz qanuni hakimiyyətlərini bərpa edən Səfəvilər Qarabağların sultanlıq statusunu özünə qaytarmışdır. Qarabağlar kəndi XVIII əsrin 30-cu illərində Naxçıvan sancağında Qarabağ adı ilə 16 kəndi əhatə edən nahiyə mərkəzi, XIX əsrdə isə Xok mahalında kənd olmuşdur. Göründüyü kimi, bu ad müxtəlif zamanlarda həm Qarabağ, həm də Qarabağlar şəklində işlənilmişdir.

İrəvan və Naxçıvan xanlıqlarının tarixi və coğrafiyasının tədqiqi ilə məşğul olmuş fransız mənşəli İ.Şopen Qarabağlar şəhəri, onun sinfi və etnik tərkibi, folkloru və incəsənəti, təsərrüfatı barədə məlumat vermişdir. İ.Şopen bu qədim yurdun rus işğalından çox əvvəlki vəziyyətinin təsvirini verə bilmişdir.

1833-cü ildə Sankt-Peterburqda V.Qriqoryevin nəşr etdirdiyi “Naxçıvan əyalətinin statistik təsviri” əsərində də Qarabağlar haqqında geniş məlumat verilir. Buradan da Qarabağların əhalisi, onun ödədiyi vergilərin adları, həcmi haqqında qiymətli məlumatlar əldə etmək mümkündür.

### *Mənbələr Qarabağlar Türbə Kompleksi haqqında*

Qarabağlar Türbə Kompleksi qoşa minarə, onlar arasındakı baştağ, qoşa minarələrə birləşən dini binanın qalıqları və türbədən ibarətdir. Bu abidələrdən ikisi – qoşa minarəli baştağ və türbə dövrümüzədək gəlib çatmışdır. Türbə Kompleksi göstərir ki, Qarabağlar orta əsrlərdə Azərbaycanın inkişaf etmiş mədəniyyət mərkəzlərindən biri olmuşdur. Türbə Kompleksində hər bir abidənin özünəməxsus yeri, mövqeyi və tarixi əhəmiyyəti vardır. Qarabağlar Türbə Kompleksi təkcə Azərbaycanın deyil, Ön Asiyanın memarlıq incilərindəndir. Türbə Kompleksi, görünür, Elxanilərin hakimiyyəti illərində tikintisi geniş yayılmış əbvab-əl-birr (dindarlığın qapıları – İ.H.) adlı iri xatirə-xeyriyyə komplekslərindən olmuşdur. Tərkibində saray, məscid, mədrəsə, xanəgah, şəfaxana, hamam və başqa binalar olan belə komplekslərin mərkəzi tikilisi və dominantı “Ali günbəz” – uca türbə olurdu .

Mənbələr və mütəxəssislər qoşa minarələrin XII-XIII əsrlərdə, baştağın XIV əsrdə, türbənin isə 1332-1337-ci illərdə tikildiyini qeyd edirlər. Üslub və tikinti texnikası xüsusiyyətlərinə görə, türbənin tikilmə tarixi Hülakü hökmdarı Əbu Səid Bahadır xanın hakimiyyəti illərinə (1319-1335) aid edilir.

Qarabağlar Türbə Kompleksi haqqında tədqiqatçılardan M.Mirheydərzadə, Ə.Salamzadə, L.Bretanitski, K.Məmmədzadə, Ə.Əsgərzadə, V.Sısoyev, T.Yazar, S.Kərimzadə, Ş.Məmmədova və başqaları maraqlı və əhəmiyyətli fikir və mülahizələr söyləmiş, abidələrin tarixi haqqında

*Ardı 4-cü səhifədə*

bir sıra dəqiqləşmələr aparmışlar. Qarabağlar memarlıq kompleksinə daxil olan qoşa minarənin XII əsrin sonu, XIII əsrin əvvəllərində tikildiyi ehtimal edilir. Minarələri bir-birinə bağlayan baştağ isə XIV əsrə aiddir. Baştağın üzərində Elxani hökmdarı Hülakü xanın arvadı Quti xatının adı yazıldığından, onun Quti xatının şərəfinə tikildiyi güman edilir. M.Mirheydərzadə baştağın kitabəsində "Allahın bu nişanəsi türkman Quti xatındır" sözlərinin yazıldığını qeyd etmişdir. Ə.Salamzadə və K.Məmmədzadə güman edirlər ki, kitabə parçasında Elxanilər sülaləsindən olan Abaka xanın arvadı Koday xatının adı xatırladılır. Tədqiqatçı R.Əliyeva da bu fikirdədir. Azərbaycan Sovet Ensiklopediyasında baştağın üzərində Elxani hökmdarı Hülakü xanın arvadı Quti xatının (Qutuy xatın) adı yazıldığından, onun Quti xatının şərəfinə tikildiyi göstərilir. Ə.Ələsgərzadənin fikrincə, kitabə aşağıdakı formada olmuşdur: "Bu binanın tikilməsini... cahan Qudi xatın əmr etdi". Turqay Yazar kitabənin sülüs xətti ilə yazıldığını və aşağıdakı mənanı verdiyini bildirir: "...Bu binanın tikilməsini Cihan Koday xatın əmr etdi".

Beləliklə, gətirilən faktlardan və digər mənbələrdəki məlumatlardan aydın olur ki, Qarabağlar türbəsi Elxanilər sülaləsindən olan yeddinci vəliəhd Sultan Əhmədin ölümündən sonra onun anası Cahan Quti xatının əmri ilə tikilmişdir. Həmin dövrdə dövlətə rəhbərlik edən Quti xatın ölümündən sonra bu məqbərədə dəfn olunmuşdur. Mənbələrdə adı Quti, Qudi, Qutuy xatın şəklində anılan Quti xatın tarixçi Fəzlullah Rəşidəddinin yazdığına görə "Çox ağıllı və bacarıqlı olub, sarayda yüksək mövqe tuturdu". Quti xatın qısa müddətdə olsa da, oğlu Sultan Əhmədin hakimiyyəti illərində, 1382-1384-cü illər arasında dövləti özü idarə etmişdi. O, böyük hörmət və nüfuzunu sonralar da saxlamışdı. Görünür, Abaqa xanın Quti xatın üçün ayırdığı yerlər içərisində Qarabağlar şəhəri də olmuşdur.

Qarabağlar türbəsi iki hissəlidir: sərdabə və yerüstü xatirə abidəsi. Bu abidədə qülləvarı türbənin əsas xüsusiyyətləri əks olunmuşdur. Daş kürsülük üzərində dəstə şəklində birləşən 12 yarımsilindrik çıxıntı onun yerüstü kompozisiyasını təşkil edir. Gövdə səthinin belə yarımsilindrik çıxıntılarla işlənməsi yalnız bədii-dekorativ əhəmiyyətə malik olmayıb, eyni zamanda mühəndis quruluşu cəhətdən də əhəmiyyətlidir. Bir-biri ilə birləşmiş on iki yarımsilindrik çıxıntı divarın ümumi həcmini azaltmaqla bərabər, eyni zamanda türbəyə bir qala görkəmi də verir. Türbənin kompozisiya xüsusiyyəti dörd baştağlı olmasıdır. Dörd coğrafi səmtə cəhətlənən giriş yerləri türbəni dörd bərabər hissəyə bölür. Binanın bütün səthlərində xırda şirli yaşıl kərpiclərdən çəkilmiş üzlük qırmızımtıl kərpic fon üzərində onun səthini böyük kvadratlara bölür. Çəpinə qoyulmuş belə kərpiclərdən isə romblar əmələ gəlmişdir. Kvadratların hər birinin içərisində isə iri yaşıl kərpiclərlə "Allah" və "Bismillah" sözləri yazılmışdır. Türbənin bütün səthində kufi xətti ilə yazılmış "Allah" sözü 200 dəfədən artıq təkrar olunur.

Türbədən, təxminən, 30 metr aralıqda iki yüksək minarə ucalır ki, bunların hündürlüyü 17 metrə qədərdir. Minarələrin aşağı hissələrində kvadratşəkilli bünövrə düzəldilmişdir. Minarənin səthində yaşıl rəngli kaşı çəkilmiş kərpiclərdən bəzəklər yaradılmışdır. Hər iki minarənin içərisində dolama pilləkən vardır. Bu minarələr Azərbaycan ərazisindəki ən qədim kərpic minarələrdəndir. Baştağın özü isə təkcə yurdumuzun deyil, bütün İslam ölkələrinin memarlığında qoşa minarəli baştağların ilk nümunələrindəndir. Qarabağlar baştağı nadir abidədir. Baştağ gözəl kompozisiya və incə memarlıq bədii həllinə görə də dəyərli sənət əsəridir.

Tarix və mədəniyyət abidələri ilə zəngin olan Naxçıvan diyarının qürurluluq ünvanlarından biri olan Qarabağlar kəndi və onun Türbə Kompleksi özünün ikinci həyatını yaşayır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Qarabağlar Türbə Kompleksinin bərpa və tədqiq olunması haqqında" Sərəncamından irəli gələn vəzifələrə uyğun olaraq abidələr ən yüksək səviyyədə bərpa edilir, ilkin gözəlliyinə qaytarılır.

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

---

*Şahbuz Rayon Xalq Teatrı muxtar respublikada mədəniyyətin inkişafına göstərilən qayğıdan bəhrələnən teatrlardan biridir. Maraqlı çıxışları ilə tamaşaçı rəğbəti qazanan teatrın bugünkü fəaliyyəti əsrlərdən bəri formalaşmış ənənələrə söykənir. Bu ənənələrin yaşadılması, yeni meyarlarla davam etdirilməsi isə uğurlu nəticələrə səbəb olur.*

# Dram dərnəyindən xalq teatrına

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının 125 illik yubileyində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu barədə deyib: ***"Ən qədim zamanlardan üzü bəri Naxçıvanda elm, incəsənət, ədəbiyyat sahələrində mütərəqqi ənənələr mövcud olmuşdur. Naxçıvan teatrı da, necə deyərlər, quru yerdən yaranmamış, özündən əvvəl formalaşmış ənənələrə istinad etmişdir. Bu diyarda dünyəvi teatrın yaranmasına təsir göstərən ən mühüm amillərdən biri min illər boyu formalaşmış xalq teatrı olmuşdur. Əməklə bağlı oyun və rəqslər, mövsüm bayramları, Novruz mərasimləri, aşıq-ozan sənəti, müxtəlif tipli meydan-tamaşa növləri xalq teatrının əsasını müəyyən etmiş, milli teatrın gələcək inkişafı üçün möhkəm zəmin yaratmışdır".***



...1936-cı ildə Şahbuz Rayon Mədəniyyət Evinin nəzdində yaradılan dram dərnəyi öz ətrafına həvəskar və istedadlı gəncləri cəlb edərək kiçik səhnəciklər, kompozisiya və bəzi dram əsərlərindən parçalar hazırlayaraq rayon tədbirlərində iştirak edib. Getdikcə dram dərnəyinin fəaliyyəti daha da canlanmağa başlayıb, nəinki gənclərin, hətta ortayaşlı nəslin nümayəndələrinin də maraq göstərdiyi bu dərnəyin üzvlərinin sayı artıb. Dərnəyin kollektivi artıq irihəcmli dram əsərlərinə də müraciət edib. Bizimlə söhbətdə bu barədə danışan Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Çingiz Haqverdiyev teatrın keçdiyi yolu bir daha xatırladaraq deyir ki, Səməd Vurğunun "Fərhad və Şirin", "Vaqif", Nəcəf bəy Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük", Mirzə Fətəli Axundovun "Hacı Qara", Hakim Əhmədovun "Şübhəli adam" (Bu əsər Azərbaycan Respublikası üzrə Şamaxı şəhərində keçirilən dram kollektivlərinə baxış-müsabiqədə I yeri tutub) əsərləri özünə böyük tamaşaçı auditoriyası toplaya bilib.

1980-ci ilin sonlarından ölkəmizdə baş verən böhranın mədəniyyət sahəsindən də yan keçməməsi bir müddət dram dərnəyi kollektivinin işində durğunluq yaradıb. Azərbaycanın ikinci dəfə dövlət müstəqilliyi əldə etməsi ilə həyatın bütün sahələrində olduğu kimi, mədəniyyət sahəsində də əsaslı dönüş yaranıb, bu sahənin inkişafına göstərilən qayğı kollektivi yeni uğurlar qazanmağa ruhlandırıb.

Söhbətə qoşulan teatrın quruluşçu rejissoru Ramiz Cəlilov deyir ki, yenidən səhnəyə qayıdan kollektiv ilk olaraq repertuarını təzələdi. Ciddi məşqlərdən sonra, 2011-ci ilin əvvəllərində Üzeyir Hacıbəyovun üçpərdəli "Ər və arvad" musiqili komediyası tamaşaçılara təqdim olundu. Bu əsərə səhnə həyatı verməyimiz yeni uğura imza atmaqla nəticələndi, tamaşaya görə teatra xalq teatrı statusu verildi. Kollektiv bu əsərdən sonra 2012-ci ildə Səid Rüstəmovun "Beş manatlıq gəlin" musiqili komediyasına müraciət etdi. 2013-cü ildə teatr repertuarını Zülfüqar Hacıbəyovun "Evli ikən subay" üçpərdəli musiqili komediyası ilə genişləndirdi. Yüksək tamaşaçı alqışları ilə qarşılanan bu səhnə əsəri həm də sərhədlərimizin keşiyində dayanan, ərazi bütövlüyümüzü qoruyan hərbçilər qarşısında oynanılıb.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə 2014-cü ildə xalq teatrlarının muxtar respublika üzrə keçirilən I festivalında uğurlu çıxış edən kollektiv daha bir mükafata layiq görülüb. Belə ki, xalq teatrına Mədəniyyət və Turizm Nazirliyinin diplomu verilib. Bu mükafatın, necə deyərlər, ayağı sayalı olub. Teatr xalq teatrlarının muxtar respublika üzrə keçirilən II festivalında fərqlənərək III yerin sahibi kimi diplom və pulla mükafatlandırılıb.

Ramiz Cəlilov onu da bildirir ki, daha çox komediya janrına müraciət edirik. Ancaq azsaylı aktyor heyəti ilə komediya hazırlamaq bir qədər çətindir. Ciddi xarakterli səhnə əsərlərindən fərqli olaraq burada həm də musiqi parçalarından istifadə, aktyorların səs tembrinə malik olması tələb edilir. Bu işdə rayon Mədəniyyət Evinin musiqi kollektivləri, Naxçıvan Dövlət Musiqili Dram Teatrı bizə kömək edir.

Rayonun mədəni həyatında fəal iştirak edən, tez-tez bölgədəki hərbi hissələrin qonağı olan kollektivin üzvləri muxtar respublikada mədəniyyətin inkişafına göstərilən qayğını daim öz üzərində hiss edir, əldə etdikləri uğurlarla kifayətlənmir, yaradıcılıq axtarışları aparır, insanların asudə vaxtlarının səmərəli təşkilinə çalışır və buna nail ola bilirlər. Şahbuz şəhər sakini Məhərrəm İsmayılov deyir ki, teatrın bütün tamaşalarına baxıram. Aktyorların oyununda son vaxtlar müşahidə etdiyim peşəkarlıq belə deməyə əsas verir ki, onlar yaradılan şəraitdən dolğun istifadə edir, qarşıya qoyulan vəzifənin öhdəsindən gəlməyə səy göstərirlər.

Kollektivin 2017-ci ildəki repertuarında hələlik iki səhnə əsəri var. Bunlardan biri görkəmli bəstəkarımız Üzeyir Hacıbəyovun "Arşın mal alan", digəri isə Zülfüqar Hacıbəyovun "50 yaşında cavan" əsərləridir. Bununla yanaşı, teatr il ərzində rayonda və muxtar respublikada əlamətdar günlər, bayramlar münasibətilə təşkil ediləcək tədbirlərə də hazırlaşır, kiçik səhnə əsərləri, əsərlərdən parçalar üzərində də məşqlər aparır, səhnə uğurlarını artırmağa çalışır. Teatr cari ildə muxtar respublikanın rayonlarına qastrol səfərlərinə çıxmağı da planlaşdırır.

Yazının əvvəlinə qayıdaraq bir məsələni də vurğulamaq istəyirəm. Xalq teatrları dövlət teatrları üçün kadr hazırlığında başlıca ünvanlardan biridir. Professional teatrlar həmişə bu məsələni diqqətdə saxlayıblar. Şahbuz Rayon Xalq Teatrının da bu vəzifənin həllində məsuliyyət daşıdığını onların qazandıqları uğurlar sübut edir və muxtar respublika səviyyəli tədbirlərdəki çıxışları da belə deməyə əsas verir ki, xalq teatrı metodik mərkəz kimi Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının fəaliyyətindən bəhrələnir, peşəkar aktyorlar yetişdirilməsinə səy göstərir. Bu yolda kollektivə uğurlar arzulayırıq.

**✍ Muxtar MƏMMƏDOV**

---

# Naxçıvana müasir tatuaj silən avadanlıq gətirilib

***Müasir dövrümüzdə bəzi insanlar tatuajın hansı fəsadlar törədəcəyinin fərqinə belə varmadan ondan geniş istifadə edirlər. Araşdırmalar nəticəsində bir daha təsdiq olunub ki, tatuaj insan sağlamlığını təhlükə qarşısında qoysa, hətta xərçəng xəstəliyinin yaranmasına səbəb ola bilər. Ümumiyyətlə, tatuaj insanda dəri xərçəngi, tetanos, herpes simpleks deyilən uçuq, allergik reaksiya yaradır, hamiləlikdə körpənin inkişafına mənfi təsir göstərir və anormallığa, kimyəvi reaksiya nəticəsində limfa düyünü iltihabına səbəb ola bilir, hepatit B və C xəstəliyinə yol açır.***

Həkimlər tatuajdan uzaq durmağı məsləhət görürlər. Çünki tatuaj yad maddələrdən ibarətdir və bu maddələr insan bədəninə "yeriyəndən" sonra bədən həmin maddələrə əks reaksiya verir, insan orqanizmində fəsadlar törədir. Qeyri-standart maddələrin fəsadları isə daha çox ola bilər. Qeyd etdiyimiz kimi, tatuaj zamanı istifadə olunan bəzi maddələr var ki, xərçəng və digər xəstəliklərin yaranması riskini xeyli artırır.

Bəzən insanlar sonradan peşman olduqları üçün tatuajı sildirmək qərarına gəlirlər. Lakin bu proses çox vaxt dəriyə təsirsiz ötüşmür. Bütün bunlar nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən muxtar respublikamıza müasir tatuaj silən avadanlıq gətirilib. Bütün proseslər Gənclər və İdman Nazirliyinin tabeçiliyində olan İdman-Tibb Mərkəzində xüsusi kurslarda iştirak etmiş və sertifikata layiq görülmüş həkim, tibb bacılarının nəzarətində aparılır. Tatuajların silinməsi 2-3 seans çəkir və dəridə heç bir iz buraxmır. Bütün bunlar ödənişsiz həyata keçirilir.

Seanslarda iştirak edərək tatuajdan xilas olmaq istəyənlər Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinə müraciət edə bilərlər.

**✍ Ceyhun MƏMMƏDOV**

---

## 17 aprel 2017-ci il tarixdə Naxçıvan şəhərində saat $11^{00}$-da hərraca çıxarılacaq müəssisələr haqqında məlumat

| S/s | Müəssisənin adı | Ünvanı | Əmlakın ilkin qiyməti (manat) | Əmlakın satış qiyməti (manat) | 10% beh |
|---|---|---|---|---|---|
| 1. | "Duzdağ" hoteli | Duzdağ massivi | 17.288.686,78 | 15.559.818,10 | 1.555.981.81 |
| 2. | Tədris-Ticarət Mərkəzi | Naxçıvan şəhəri | 1.534.424,73 | 1.380.982,26 | 138.098,23 |

**Qeyd:** Hərraclar Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində hərrac komissiyası tərəfindən keçirilir. Hərracda iştirak etmək üçün komissiyaya aşağıdakı sənədlər hərracın başlanmasına ən geci 3 (üç) bank günü qalanadək təqdim olunmalıdır:

1. Sifarişçinin şəxsiyyətini təsdiq edən sənəd
2. Müəyyən edilmiş formada sifariş
3. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən edilmiş 10 faiz məbləğində behin Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ30NABZ12360150000000065944 nömrəli hesabına ödənildiyi haqda qəbz.

***Ünvan: Naxçıvan şəhəri, Atatürk küçəsi 42***
***Əlaqə nömrələri: 545-01-38, 545-02-36***

---

## Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi

### *2017-ci il üçün kotirovka elan edir*

*1. Dəftərxana ləvazimatlarının satın alınması.*
*2. Təsərrüfat malları və yuyucu maddələrin satın alınması.*

Kotirovka 27 mart 2017-ci il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki, iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir. Kotirovka zərfi 28 mart 2017-ci il tarixdə saat $10^{00}$-da Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Əlaqələndirici şəxs: Məmmədxanov Ramil Məmməd oğlu***
***Telefon: 544-66-26***
***Ünvan: Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi***


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 221